Azər TURAN

II hissə

Əvvəli 16 may sayımızda

Azərbaycan və Anadolu fatehi Alp Ər Tonqa

Yaddaşımdakı ilk zolağı Alp Ər Tonqanı yer üzünə gətirən Altun İşıq açdı. Dağın, yaxud Ağacın Alp Ər Tonqaya necə gəbə qaldığını heç unutmadım. Mavi işıqdan biçilmiş qızın pəncərəmdən necə girdiyini gördüm. O qız mənə "Köç!" - dedi. Mən də bu yazıya köçdüm.

Müəllif

Mifoloji baxımdan əcdad Oğuzdur. Amma Oğuz yalnız oğuz boylarında Oğuzdur (və əcdaddır). Tarix yönündən isə sülalənin başlanğıcı - bütün türk aləmində - Oğuzlarda da, Qıpçaqlarda da əcdad kultu böyük Saka xaqanı Alp Ər Tonqaya bağlanır.

Mete xanı tarix səhnəsinə çıxaran Hunlar da, Göktürklər də, karluklar da, Satuq Buğra xaqanın timsalında sıralarından ilk müsəlman hökmdarını yetişdirən qaraxanlılar da, qaramanlar, uyğurlar, səlcuqlular da, xarəzmşahlar, yakutlar, kınık boyu da öz şəcərələrinin Əfrasiyabdan gəldiyini söyləyirlər. Əbülqazi Bahadur xan "Şəcərei-Tərakimə» əsərində yazır: "Səlcuqlular hökmdar olmadan öncə: "Biz türkmənlərin Qınıq uruğundanıq", - deyə bəyan edirdilər, hökmdar *olandan sonra isə dedilər: "Əfrasiyabın oğlu Keykavusdan qaçdı və türkmənlərin Qınıq elinə gəldi, orada böyüdü və (həmişəlik) qaldı.* Biz onun törəmələriyik, biz Əfrasiyab soyundanıq". Öz ulu babalarını sayaraq, otuz beşinci nəsildə (onları) Əfrasiyaba çatdırırdılar". Deməli, türk tarixində Əfrasiyabın nəslindən olmadan, "Ali-Əfrasiyab" sayılmadan hər hansı bir sülalənin hakimiyyət və xanədan qura bilməsi mümkün hesab edilməyib.

Çin qaynaqlarında doqquz Oğuz qəbiləsindən oluşan Gök türklərdən yalnız dördünün adına təsadüf olunur. Bu qəbilənin biri - Buku xanı tarixə bağışlamış uyğurlar da özlərini Əfrasiyab nəslindən sayırlar *(O.Turan)* və hətta Buku Xanın özünün bir başqası deyil, məhz Alp Ər Tonqa olduğuna inanırlar.

"Güveyni ayrıca xalq arasında Buku xanın Əfrasiyab olmaq üzrə tələqqi edildiyini", - söyləyir. Doqquzoğuzların və Alp Ər Tonqa mənqəbələrinin yayıldığı bir sahədə bir uyğur mənqəbəsində hələ Bukunun Əfrasiyab olmaq üzrə tanınmasına heyrət etməməlidir", - deyən Fuad Köprülünün görüşünə görə, Bukunu 736-cı ildə maniheizmi dövlət dini olaraq qəbul edən Uyğur xanı olaraq qəbul etmək doğru deyildir. Buku xan o xanın, sülalənin mənqəbəvi cəddidir".

Alp Ər Tonqa doqquz oğuzlarda Tunq-lâ - Tunqra ilə eyni adamın kimliyini, taleyini paylaşır.

Şəmsəddin Samiyə görə, "Turan ismi Midiya ilə kifayətlənməyib Türk əqvamıyla məskun olan bütün Şimali Asiyadan bəlkə Avropanın şimal-şərq hissəsinə də aid olunmuşdur".

Özlərini Əfrasiyabın (Alp Ər Tonqanın) nəslindən hesab edən yakutlardan başlamış, yenə də özlərini Əfrasiyabın (Alp Ər Tonqanın) övladı sayan Azərbaycan türklərinə qədər hamısı Şəmsəddin Saminin nişan verdiyi həmin coğrafiyda yaşamırmı?

Əfrasiyab nəslindən gələn hökmdar sülalələrinin səciyyəsi də oxşardır. "Dindarlara və alimlərə sayğı, zahidlərə ehsan, fəqirlərə şəfqət və xalqa ədalət" Əfrasiyab oğullarının tarixdəki simasını bəlirləyən, xatirələrini əsrlərcə yaşadan əsas cizgilərdir.

Alp Ər Tonqadan sonra da yüzillər boyu bu böyük xaqanın nəslindən gəldiklərinə inanan hökmdarlar zaman-zaman onun tövsiylərini dinləmiş, ədalətli dövlət idarə etməyin yollarını Alp Ər Tonqadan - Əfrasiyabdan öyrənmişdilər. «Qutadqu bilig»də Ögdülmüşün hökmdara söylədikləri də həmin etiqadın - millətin öz atasına, elin qurucusuna ehtiramının bəlirtisidir:

"Bilirsən ki, bəylər kimi özlərinə yaxın tutarlarsa, insanlar daima onun varınıyoxunu çəkişdirirlər. Sən mənə nə qədər yaxşı gözlə baxsan belə, qanmazların fitnələri səni məndən soyuda bilər. Qəhrəman və cəsur insan (Alp Ər Tonqa - **A.T.**) nə deyir, dinlə; bu öyüd və nəsihəti o, bizlərə vermişdir: İnsan qəlbi ətdəndir, pozular və qoxuyar. Ey iradəli insan, onu çox yaxşı qorumalısan". (R.R. Arat tərcüməsi)

* * *

Əfrasiyabın dövrü Peyğəmbərlər dövrüdür. Eremey Peyğəmbərin dövrüdür. Danyal Peyğəmbərin dövrüdür. Zərdüştün dövrüdür.

"Avesta"da balıq yeyənlər adlandırılan turanlılar köçəbə iskitlərdir və bunlar İrandakı atəşpərəst dini həyatın düşmənidirlər. Yenə də məcusilərə görə, ifrit və cin təbəqəsini təmsil edən Turanlı quldurların başçısı Əfrasiyab ən mənfur şəxsdir. Hətta atəşpərəstlərin dini kitabında Pəşəng və Əfrasiyabı məğlub etmək üçün yüz at, min inək, on min qoyun qurbanı nəzir edilib. "Avesta" öz müasiri olan türk atamızı, türk cahan hakimiyyəti məfkurəsini varlığının mahiyyətində ilk təcəssüm etdirən bir insanı "yeraltı dünyada yaşayan əclaf, hiyləgər, qəddar" adlandırıb.

Amma Franxrasyan (Əfrasiyab-Alp Ər Tonqa) da məcusilərlə yola getmir. Zəki Vəlidi Toğan yazır ki: "Narşahidə nəql olunan bir İran rəvayətinə görə, Əfrasiyab... İranın və Zərdüştülüyün tam bir düşməni idi".

Bu antaqonizm, düşüncə ixtilafı bir təfəkkür məsələsidir.

Sakaların dini həyatı barədə günümüzə gəlib çatan soraqlarda onların dini düşüncədə yunanlardan çox şeyləri əxz etdikləri görünür. Yunan mifolojisinin (və bütpərəstliyinin) bir çox elementləri, yunanın ilahlar panteonu sakalarda və yunanlarda az qala, eynilə təkrarlanır. Hətta sakaların baş ilahı Ataş məbudu Tabiti qədim Romada ailə ocağının və atəşin hamisi Vesta, yunan mifolojisində yenə də həmin missiyanı yerinə yetirən Hestinin saka versiyasıdır. Amma, məncə, Vesta da, Hesti də türk, bəlkə də Troya mənşəli olmalıdır. Vergilinin "Truvanın son gecəsi"ndə Eneyin başından keçənləri tərcümə edərkən Əli bəy Hüseynzadə maraqlı bir məqama toxunur. "Gözüm ilişdi Vesta məbədində mehraba» misrasındakı Vesta kəlməsinə mütərcimin münasibəti" belədir: "Vesta - Ataş ilahəsi. Yunanca "Hestia" adlı ilahə ki, kəlmənin türkcə hərarət olan (ıssı, issi, isti) sözləri-lə ilgisi olduğu bəllidir".

Sakaların dini həyatı, məncə, daha dərin tədqiqat tələb edir. Sakaların, iskitlərin, skiflərin dünyaya yayıldığı coğrafiyada, mədəniyyət tarixinin əsas nüvə mərkəzi olan torpaqlarda (və Azərbaycan torpaqlarında) yaşayan insanların inanc sistemi heç kəs üçün qaranlıq deyil.

Bu mənada sakalar dini həyatda atəşpərəst kəyanilərlə yola getməliydilər. Amma getmədilər. Niyə getmədilər?

Azərbaycan türk ədəbi arealına cəlb etməkdə ayrıca inad göstərdikləri «Avesta» «əclaf turanlılar və turlarla» ləbələb «müqəddəs» bir kitabdır. Anlamaq olmur, Türk əleyhinə "nazil olmuş ayələrdən" ibarət olan "Avesta"nı cidd-cəhdlə türkləşdirmək, yaxud azərbaycanlılaşdırmaq istəyənlər, yaxud əsli-nəsli bilinməyən Dəvdək adlı bir şairin Cavanşirin ölümünə yazdığı: «Tamam ram etmişdi böyük Cavanşir, Dünayda nə qədər işğalçı var?» kimi əttökən «mərsiyəsini» erməni dilindən Azərbaycan türkcəsinə çevirib ədəbiyyat tariximizin birinci yazısı edənlər nə üçün Alp Ər Tonqaya, yaxud Alp Ər Tonqa barədə bizim öz dilimizdə yazılmış ən qədim türk şerinə sahib çıxmaq istəmir?

Təbərinin Hişam bin Muhamməd əl-Kalbiyə istinad edərək yazdığına görə, «Zərdüşt əhl əl kitab üləması nəzərində, Fələstin əhalisindəndir. Eremey peyğəmbərin tilmizlərindən (tələbələrindən) birinin xidmətçisi olmuş, Eremeyi aldatmış və buna görə lənətlənmiş, cüzam xəstəliyinə tutulmuş, ondan sonra Azərbaycana gəlmişdir».

«Avesta» Turan xaqanı olaraq, türk olaraq açıqla yad etdiyi Əfrasiyabı - Alp Ər Tonqanı, daha doğrusu, öz dövrünün real bir adamını, Turan sərkərdəsini hansı səbəbdən qorxunc və «iyrənc» bir əsatirə çevirib? Amma buna rəğmən, başa düşmək, anlamaq olur ki, Əfrasiyabın - Alp Ər Tonqanın oğlu, o dövrdə Hun hökmdarı olan turanlı Ərcaspın hücumları zamanı 583-cü ildə Bəlxdəki atəşgədədə 77 yaşlı Zərdüştü qurt dərisinə bürünmüş turanlı Bratvarkş, Zərdüşti qaynaqlarında qurd sifətli turanlı Rvaxş Tur, ərəb qaynaqlarına görə, Gök Börü Quz nə üçün öldürə bilərdi?

Çox düşündürücüdür ki, şahı da, şahın tapındığı dinin peyğəmbərini də - Löhrəsbi də, Zərdüştü də Alp Ər Tonqanın oğlu Ərcasb cəzalandırmışdır.

«Avesta» böyük tarix meydanına Turan imperatorluğunu qura bilmək gücü ilə atılmış tarixi bir şəxsiyyətin qarşısına kəyanilərin çəkdiyi ideoloji səddir. Axı hələ Firdovsiyə min beş yüz il qalmış, hələ Əfrasiyabın dövründə bir «peyğəmbər» öz müasiri olan bir şəxsiyyət barəsində ürək bulandıran fikirlərini nə üçün yaymalıydı? Zərdüşt sanki bu dünyaya Alp Ər Tonqa ilə - Əfrasiyab ilə döyüşmək, böyük Turan imperatorluğunun qurulması yolunda əngəl törətmək üçün göndərilmişdi.

«Avesta»ya görə, Əfrasiyabın sarayı **Baku**ir dağının altındadır. Rus mənbələri Əfrasiyabın təxminən beş min ton ağırlığında olan qızıl sərvətlərindən bəhs edir. I Pyotrun vaxtından bu günəcən bizə romantik olmamağı, gerçəkçi düşünməyi öyrədənlərin özləri Alp Ər Tonqaya məxsus sərvətlərin axtarışı ilə məşğuldurlar. Hətta I Pyotrun öz sarayına iyirmi dörd şaman gətirtməsi də həmin xəzinənin yerini tapmaq məqsədilə olmuşdu.

«Rus çarlarına Orta Asiyada və Sibirin bir çox yerlərində xəzinə dolu məzarların bulunduğu xəbər verilirdi... Rus muzeyləri və bilxassə Peterburqdakı Ermitaj muzeyi, vaxtilə Türk imperatorluğuna aid torpaqlar olub, sonradan Rus vilayəti halına gəlmiş bölgələrdəki məzarlıqlardan çıxarılan xəzinələrlə dolub-daşmağa başlamışdır». *(Adilə Ayda)*

* * *

Kəyan Şahı Keykavusun türklər və çinlilər padşahı Alp Ər Tonqaya müraciətlə "Ey Əfrasiyab... Heç vaxt keçirmədən qalx, İrandan çıx get. Madəm ki, Turan ölkəsindən çox xoşlanırsan, öyləysə İranda nə işin var sənin? Sən gərçi türk soyundan bir igidsən və böyüklüyün bayrağını açmışsan!" - deyə yazdığı məktuba Alp Ər Tonqanın verdiyi cavab Cahan hakimiyyətinə iddialı Saka (Turan) imperatorunun açdığı savaşların tarixi mahiyyətindən soraq verir: "Böylə... laf etmək ancaq pis təbiətli insanlara yaraşır... Əgər İran sənin xoşuna getmiş olsaydı, tutub Misirə, Bərbəristana göz dikməzdin. İştə mən savaşa hazıram və bayrağımı da açıram. Sən bilirsən ki, mən savaşmağa qərar verincə qılıncımın atəşindən suyun içindəki timsah belə qavrulur. Gürzləri, mizraqları, oxları və qılıncları ilə Yer üzünü ucdan-uca qaplayan bir ordu donatdım... Doğru sözə qulaq vermən və İranın bu iki səbəbdən mənim olduğunu bilmən gərəkdir. **İranın mənim olmasının ilk səbəbi, Firidun oğlu Tur soyundan gəlməmdir. İkincisi isə qılınc çalmaqda eşsiz olan bu qollarım sayəsində İranı ərəblərdən boşaltmamdır.** Mən əlimdəki qılıncla dağların təpələrini belə zəbt edər və qara buludların içindəki qartalları ovlaram".

"İranın mənim olmasının ilk səbəbi, Firidun oğlu Tur soyundan gəlməmdir. İkincisi isə qılınc çalmaqda eşsiz olan bu qollarım sayəsində İranı ərəblərdən boşaltmamdır"

Alp Ər Tonqa

İran taxtının da türklərə məxsus olduğunu iddia edən Alp Ər Tonqanın varisləri sonralar bunu qəznəlilərin, qızılbaşların, əfşarların, qacarların simasında İran torpaqlarındakı min illik hakimiyyətləri ilə təsdiq etdilər.

* * *

... Türk yurdlarını - əski adı Əfrasiyab olan indiki Səmərqəndi, Naxçıvanı, gündoğandan günbatanacan yayılmış məmləkətinə paytaxt olaraq yapdırdığı Şabranı, Gəncəni, Qumu, Mərvi, Buxaranı, Ramitanı, Barçuku, Qəzvini, Daşkəndi... və özünün Ordu Kənd adlandırdığı Kaşqar da daxil olmaqla bir çox şəhərləri Alp Ər Tonqa qurmuşdur.

«Xalqın əfsanəvi rəvayətinə görə, Səmərqəndin banisi... türklərin əfsanəvi xaqanı Əfrasiyab idi. Bu isə şəhərin miladdan 3-4 min əvvəl tikilmiş olmasını icab edər». *(X.S.Xocayev)*

Evliya Çələbi «Səyahətnamə»sində Naxçıvan «zamani-qədimdə Şah Əfrasiyab tərəfindən bina edilmişdir. Bu gün də atalarının dəfn edildiyi qübbələr mövcuddur. Onun vaxtında Naxçıvan çox abadlaşmışdır», - deyir.

Zəkəriyyə Qəzvini Şabranı Alp Ər Tonqanın baş şəhəri kimi qeyd edir. Amma Zəkəriyyə Qəzvini qeyd etsə də fars amilindən qurtula bilməyən bəzi alimlərimiz Şabranın tarixini sasani hökmdarı Xosrov Ənuşirəvanın adıyla bağlamaqda israr edirlər.

"Buxaranın əsasını Əfrasiyab qoymuşdur". *(Vamberi)*

«Taşkəndin ən əski padşahlarından olaraq Əfrasiyab... xatırlanır». *(X.S.Xocayev)*

Osman Turan Nerşahinin «Tarixi-Buxara» əsərinə istinad edərək yazırdı ki, «Əfrasiyab dünyanı fəth etdiyi üçün... Xarəzm, Xorasan, İran və Azərbaycanda da bir sıra şəhərlər onun tərəfindən qurulmuş və xatirələri oralarda yaşamışdır».

* * *

... Alp Ər Tonqanın öldürülməsi faktı Zəki Vəlidinin bildirdiyi kimi, Assuri kitabə və yunan qaynaqlarında, eləcə də Çin məxəzlərində əks olunub. Firdovsidən, ən azı 1500 il öncə yaşamış Herodotun *(m.ö.490-425)* yazdığı tarixdə hadisələr tamam başqa şəkildə cərəyan edirdi. Herodot Saka çarını (Turan xaqanı Əfrasiyabı - Alp Ər Tonqanı) Kiyaksareslə (Keyxosrovla) yaxın dost olaraq təqdim edir. Maduvanın - Alp Ər Tonqanın əsgərləri Kiyaksaresin - Keyxosrovun əsgərlərinə döyüş sirlərini öyrədirlər. Hətta "Avesta"nın yazdığına baxılırsa, kəyanilərin ölkəsinə hücum etmiş ərəb sərkərdəsi Drva Zainigaoya qarşı Alp Ər Tonqa hərb açmış, onu qətlə yetirmiş və Keyxosrovu əsarətdən qurtarmışdı.

"Avesta" hər nə qədər Əfrasiyabın üstünə getsə də, onu ən ağır, çəkilməz sözlərlə aşağılamağa çalışsa da, hər halda, ərəb Zainigaonu (Samihin) öldürüldüyü səhnəni təsvir edərkən, - "Əfrasiyab onu Firidunun (Traeton) Zöhhakı öldürdüyü qılıncla öldürdü", - yazır. Bu da tarixin açıq qalan suallarından biridir. "Avesta" Əfrasiyabla bağlı yalnız bu yerdə öz kontekstindən ayrılır (ki, bunun "Avesta" mətninə sonralar artırıldığını iddia edirlər) və ilahi qılıncın Əfrasiyabda - Alp Ər Tonqada olduğunu etiraf edir. Bu sirli qılınc savaş Tanrısı Aresin itmiş qılıncını xatırlatmırmı? Zamanında onu bir hun çobanı tapıb Attilaya bağışlamışdı. Bu da dünyanın Attila tərəfindən idarə olunacağı anlamına gəlmişdi. *(B.Szasz)* Əfrasiyab da "Avesta" mətnlərində demək olar ki, Aresi əvəz edir. İbrahim Kafesoğlunun qənaətincə, Əfrasiyab adının etimolojisi savaş tanrısı anlamına gəlir.

Bu mənada, Alp Ər Tonqanın əlindəki qılınc nə zamansa Zərdüştün nəslindən doğulub dünyanın xilaskarı olacağına atəşpərəstlərin çox inandığı Saoşİntin möcüzəli silahı deyil, Hun çobanının tapıb Attilaya verdiyi qılıncdır.

Evliya Çələbi «Səyahətnamə»sində Naxçıvan «zamani-qədimdə Şah Əfrasiyab tərəfindən bina edilmişdir. Bu gün də atalarının dəfn edildiyi qübbələr mövcuddur. Onun vaxtında Naxçıvan çox abadlaşmışdır», - deyir.

Digər düşündürən məqam isə "Avesta"ya əlavə edildiyi iddia edilən mətnin Əfrasiyabı pers ölkəsini və Keyxosrovu ərəb zülmündən qurtaran xilaskar kimi göstərməsidir. Bu işarətlərin "Şahnamə"-də də olması imkan verir deyək ki, əgər bu parça "Avesta"ya sonradan əlavə edilibsə, deməli, bu ən azı min il əvvəl baş verib. Amma min il əvvəl "Avesta" üzərində türklərin, Əfrasiyabın xeyrinə kim belə təshihlər apara bilərdi ki? **"İranın mənim olmasının ilk səbəbi, Firidun oğlu Tur soyundan gəlməmdir. İkincisi isə qılınc çalmaqda eşsiz olan bu qollarım sayəsində İranı ərəblərdən boşaltmamdır".** *(Əfrasiyab)*

Deməli, Əfrasiyab Keyxosrovu ölümdən, əhəmənilər dövründə İranı ərəb istilasından qurtarıb. Amma əhəməni Keyxosrov türk Alp Ər Tonqa ilə dostluğunda səmimi olmayib, Maduvaya - Alp Ər Tonqaya münasibətində gizli həsəd və əski düşmənçilik hisslərini cilovlaya bilməyib. O, «babaları çağında özlərinə tabe olan Şimali Midiyanı və doğu Anadolunu Sakaların əlindən almaq üçün qəddarana planlar qururdu. Dostluq göstərərək etimadını qazandığı Maduvanı ziyafətə çağıraraq sərxoş edib, pusquda qoyduğu qüvvətlərlə hücum edərək Maduva başda olmaqla, bütün Saka böyüklərini ələ keçirərək öldürdü». *(Z.V.Toğan)*

Gerçək tarix budur. Alp Ər Tonqa mislində bir Cahan hökmdarı nə "Avesta"nın, nə də Firdovsinin yazdığı şəkildə can verə bilməzdi.

Alp Ər Tonqanın sonundan, aqibətindən söhbət gedərkən onun bir hiylənin qurbanı olaraq öldürüldüyü, demək olar ki, bütün qeydlərdə keçir. Bunu, hətta Heredot da yazıb. Amma "Avesta" yazarı və Firdovsi ölümün motivini dəyişir. Türk tarixinin ən böyük qəhrəmanlarından birini acınacaqlı, qorxaq, əlacsız bir duruma düşürərək öldürür. Bəli? məhz, öldürür. Çünki Əfrasiyabı Keyxosrov deyil, əvvəl Zərdüştün kitabı, sonra da Firdovsinin kitabı qətlə yetirmişdir. Alp Ər Tonqa "yeyəcəksiz, içəcəksiz dolaşırdı. Qayalıq bir dağın təpəsində bir mağaranı özünə ev yapmışdı. Bu mağarada insanlardan uzaq yaşayan Hüm adında biri vardı. Bir gün mağarada bir səs eşitdi. Alp Ər Tonqa özü öz taleyinə yanırdı. Bu sözlərin türkcə olmasından yabançının kim olduğunu anlayan Hüm ona hücum etdi. Fəqət, o yenə qaçaraq suya atıldı. Keyxosrov bu işi duydu. Hiylə ilə Alp Ər Tonqanı sudan çıxararaq öldürdülər". *("Şahnamə"yə istinadən N.Atsız)*

Hər iki halda, istər Heredotun, istərsə də Firdovsinin kitablarında Alp Ər Tonqanın ölümündə Keyxosrovun hiyləsi əsas amil kimi göstərilir.

Hətta Alp Ər Tonqanın Yuğunda söylənən ağıda da bu hiylədən söhbət gedir: "Ödlək yarağ gözətti... Oğrı **tuzak** uzattı. Bəglər bəgin azıtdı...- Fələk fürsət gözətdi. Gizli **hiylə** uzatdı. Bəylər bəyin şaşırtdı..."

Alp Ər Tonqanın qətli, əslində, Avrasiya və Yaxın Şərqdəki dövlətlərin, millətlərin və sülalələrin geopolitik maraqlarının toqquşması nəticəsində baş vermişdi və m.ö. 625-ci ilə təsadüf edən bu hadisənin səbəbilədir ki, Türk - Əhəməni düşmənçiliyi, İran-Turan ziddiyyətləri gizli-aşkar şəkildə bugünəcən davam etməkdədir. Bunun səbəblərini dünya yəqin ki, sona qədər anlaya bilməyəcək. Hədəf Turan aləmidir. Hədəfi nişan alan isə hind-Avropa uyğarlığıdır. Yunandır, haylardır, farsdır, hinddir.

Məcusi kitabının 17-ci Yaştında səadət və fərəh ilahəsi Aşiyə ünvanlanmış yalvarışlardan aydın olur ki, Alp Ər Tonqa *Çayçast gölünün (böyük ehtimalla bu gölün ya Urmiya gölü, ya da Göyçə gölü olduğu bildirilir) sahilində öldürülmüşdür.*

Firdovsiyə görə, guya Alp Ər Tonqa canını qurtarmaq üçün gölə atılıb. Amma belə deyil. Onu gölə tərəf Keyxosrovun qəhrəmanlığına əlavə çalar qatmaq üçün əvvəl "Avesta", sonra da Firdovsi "yönəldir". Əslində isə yuxarıda da bildirildiyi kimi, Alp Ər Tonqa Misir səfərindən dönüşündə Keyxosrov tərəfindən ziyafətə dəvət olunmuş və həmin ziyafətdə də böyük bir xəyanətin qurbanı olmuşdu.

Firdovsinin uydurmasına görə, Əfrasiyabın - Alp Ər Tonqanın ölümdən qurtulmaq üçün suya atılması, sonra sudan çıxarılıb öldürülməsi... hər halda, həyatının bir göldə (yaxud bir gölün sahilində) tamama yetməsi barədə zaman-zaman yeni rəvayətlərin yaranması fərqli assosiasiyalar doğurur.

Bəllidir ki, qədim türklərin inanc sistemində su ruhuna etiqad mərhələsi də olub. Yer Su (yer suv) bəlli zamanlarda türk dövlətinin rəsmi kultuna çevrilib. Türklər əski zamanlarda suda ölməyi şərəfli ölüm hesab ediblər.

Alp Ər Tonqanın ölümdən qaçması Dədə Qorqudun ölümdən qaçmasına bənzəyir. Hələ üstəlik, Dədə Qorqud Sır-Dərya üzərində, bir səccadə üstündə əlində qopuzuyla ölümü gözləmişdi... *(Gökyay)*

Hər halda, fəzilət ərkanımız ilk dəfə Alp Ər Tonqanın ölümü ilə zədələndi...

Zaman zəiflədi, uluhqlar azaldı, zəif və düşkün olan kimsələr qüvvətləndi, iyiliklər bəyi öldüyü üçün belə oldu...

Davamı gələn sayda